***Vahid Dumanoğlu***

***Xocalı – Vətənin yaralı yeri!***

Mən aşiq hara baxdım,
Qar yağdı, qara baxdım.
Qarabağın dərdindən,
Qarıdı qara baxtım.

Körpələrin nə günahı?
Güllələndi beşiyində!
Əsir oldu neçə insan,
Xocalıda, Xocalıda!
Zülm ərşə dirək oldu,
Nə tüstü var, nə də ocaq!
Şəhidlərə kəfən oldu,
Qara torpaq qucaq-qucaq,
Xocalıda, Xocalıda!
Yaman kəsdi qarı düdşmən,
Bağın yolun, dağın yolun.
İnsanları şikəst edib,
Kəsdi soldan, sağdan qolun,
Xocalıda, Xocalıda!
Sinəmizdə qövr elədi,
Ata dağı, baba dağı!
Yasa batdı elim, günüm,
Aman allah, bayramqabağı!
Xocalıda, Xocalıda!
Görməmişəm bu dünyada,
Güllədən də yağış yağdı!
Od içində yananlara,
Kənar durub, qardaş baxdı?
Xocalıda, Xocalıda!
Mənə siz də qərib deyin,
Başqa adı daşımıram.
O yurd mənsiz, mən yuvasız.
Xocalısız yaşamıram,
Xocalıda, Xocalıda!
Analaraın naləsindən,
Bu yer, bu göy dağılmadı!
Güllə dəymiş ürəkləri,
Qan apardı, sağalmadı,
Xocalıda, Xocalıda!
Bir qasırğa, tufan ola,
O torpağa qarışam mən.

İnanma ki, çətin olar,
Küsdüyümlə barışam mən.
Xocalıda, Xocalıda!
    Dağ görkəmin saxlamadı,
    Güney getdi, quzey getdi!
    Tankın, topun zərbəsindən,
    Məbəd uçdu, muzey getdi,
    Xocalıda, Xocalıda!
Orda dövran dönüb indi,
Dünya görmüş Xoca yoxdu.
Yaman yanıb, sönüb indi,
Gördüyümüz qoca yoxdu,
Xocalıda, Xocalıda!
    Belə getməz, bu dünyadı,
    Bu qisası alan olar!
    Vətənimin mərd övladı,
    Axır bir gün zəfər çalar,
    Xocalıda, Xocalıda!

***Dumanoğlu V. Xocalı – Vətənin yaralı yeri : şeir // Palitra. – 2015. – 26 fevral. - № 35. - S.15.***